**AZƏRBAYCAN RESPUBLİKASI**

**NARKOMANLIĞA VƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ DÖVLƏT KOMİSSİYASI**



# NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN VƏ ONLARIN PREKURSORLARININ QANUNSUZ DÖVRİYYƏSİNƏ VƏ NARKOMANLIĞA QARŞI MÜBARİZƏNİN NƏTİCƏSİNƏ DAİR

# İLLİK HESABAT
# 2020

AZƏRBAYCAN RESPUBLİKASI

## NARKOMANLIĞA VƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ DÖVLƏT KOMİSSİYASI

# İLLİK HESABAT 2020

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın Tədbirlər Planının 4.1.23-cü yarımbəndinin icrası ilə əlaqədar Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən hazırlanmışdır.

AZE 1016, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi 40,
Hökumət evi
www.nmdk.gov.az
info@nmdk.gov.az
(994 12) 498-58-82
(994 12) 498-25-28
(994 12) 493-35-74

802
Qaynar xətt:



"Narkomaniya və narkobiznes ilə mübarizə hər bir ölkənin, xalqın, millətin fiziki və şüuri sağlamlığı uğrunda aparılan mübarizədir"

**Heydər Əliyev**
Ümummilli Lider



"XXI əsrin çağrışlarından hesab edilən narkotiklərin qanunsuz dövriyyəsi bəşəriyyətin gələcəyinə böyük təhlükə yaradır"

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti

# MÜNDƏRİCAT

Ölkə haqqında ümumi məlumat.....5

Ön söz.....6

Normativ hüquqi bazanın təkmilləşdirilməsi.....9

Hüquq mühafizə orqanları tərəfindən görülmüş işlər.....11

Dünyada narkotiklərlə bağlı vəziyyətə dair təhlil.....13

Narkotik asılılığı olan şəxslərin müəyyən edilməsi, müalicəsi, sosial adaptasiyası və bu sahədə aparılan tədqiqatlar.....24

Beynəlxalq əməkdaşlıq.....27

Narkomanlığa qarşı mübarizə sahəsində vətəndaş fəallığının artırılmasına yönəldilən tədbirlər.....34

Narkomanlığa qarşı təbliğat və profilaktik işlərin təşkili.....38




# ÖLKƏ HAQQINDA ÜMUMİ MƏLUMAT

| | |
|---|---|
| **RƏSMİ ADI:** | Azərbaycan Respublikası |
| **PAYTAXT:** | Bakı şəhəri |
| **DÖVLƏT DİLİ:** | Azərbaycan dili |
| **ƏSAS DİN:** | İslam |
| **ƏRAZİSİ:** | 86,6 min kv.km |
| **ƏHALİSİ:** | 10 milyon 122,1 min (01.02.2021) |

# ÖN SÖZ

Narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq müasir dünyanı ciddi narahat edən əsas problemlərdən biridir. Bu problem insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan və intellektual potensialın aşınmasına, genefondun tənəzzülünə və cinayətkarlığın artmasına səbəb olan amildir. Eyni zamanda, narkotiklərin qanunsuz dövriyyəsi cinayətkarlığın artmasına səbəb olmaqla yanaşı, həm də terrorizmin maliyyə mənbəyi kimi beynəlxalq təhlükəsizliyə ən ciddi təhdidlərdən biridir.

Dünyada getdikcə daha da intensivləşən iqtisadi inteqrasiya, ticarət və genişhəcmli yükdaşımaların təşkili üçün ölkələr arasında nəqliyyat əlaqələrinin genişlənməsi dünyanın bəzi regionlarında istehsal edilən narkotik vasitələrin digər ölkələrə yayılması ilə müşayiət olunur. Bununla əlaqədar olaraq, dünya dövlətləri narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə üsullarını və narkomanlığın müalicəsi metodlarını daha da təkmilləşdirmək sahəsində səylərini durmadan artırırlar.

Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi irimiqyaslı tədbirlərin icrası nəticəsində Azərbaycan dünya ölkələri arasında özünəməxsus yer tutmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin narkomanlığa və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə dövlət və hüquq mühafizə orqanlarından konkret nəticələr tələb etməsi bu qlobal problemin ölkəmizdə yayılması təhlükəsinə qarşı Azərbaycanın mövqeyini əks etdirir.

Belə ki, bu problemlə mübarizə ilə əlaqədar 2000-2006-cı illəri, 2007-2012-ci illəri və 2013-2018-ci illəri əhatə edən Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə 3 Dövlət Proqramı uğurla icra edilmiş və hazırda 2019-2024-cü illəri əhatə edən 4-cü Dövlət Proqramı icra olunmaqdadır. 2019-2024-cü illər üçün Dövlət Proqramının məqsədi ölkədə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğat, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması, narkomanlığa düçar olmuş şəxslərin müalicə edilməklə sağlam həyata qaytarılması, müalicə-bərpa sahəsindəki fəaliyyətin müasir dövrün tələblərinə uyğunlaşdırılması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, cəza tədbirlərinin səmərəliliyinin öyrənilməsi üçün elmi və praktik araşdırmaların aparılması, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsindən və digər genişmiqyaslı məsələlərdən ibarətdir.

Ölkəmiz narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində beynəlxalq və regional təşkilatlarla, həmsərhəd və digər dövlətlərlə sıx əməkdaşlıq münasibətləri qurmuşdur.

Azərbaycanın Şərqdən Qərbə tranzit baxımından əlverişli coğrafi mövqedə yerləşməsi və müasir nəqliyyat infrastrukturuna malik olması onu beynəlxalq yükdaşımalarda Avropa ilə Asiya arasında mühüm tranzit ölkəyə çevirmişdir.

Həmçinin Azərbaycan Respublikasının narkotiklərin qanunsuz daşınması ilə əlaqədar beynəlxalq tranzit marşrutları üzərində yerləşməsi və narkotik vasitələrin xaricdən qaçaqmalçılıq yolu ilə gətirilməsi ölkəmizin bu istiqamətdə gündəlik əsasda fəal mübarizə aparmasını labüd edir.

Belə ki, ötən il daxili işlər, gömrük, sərhəd, dövlət təhlükəsizliyi orqanları tərəfindən müasir telekommunikasiya və informasiya vasitələrinin imkanlarından istifadə etməklə, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə işi gücləndirilmiş, müxtəlif marşrutlarla narkotiklərin qaçaqmalçılıq yolu ilə daşınması hallarının aşkarlanması üzrə bir sıra qabaqlayıcı profilaktik və əməliyyat-axtarış tədbirləri həyata keçirilmiş və cinayətkarlardan külli miqdarda narkotik vasitələr müsadirə edilmişdir.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması istiqamətində ayrı-ayrı sosial təbəqələr üzrə təbliğat işinin təşkili əvvəlki illərdə olduğu kimi sistemli xarakter daşımış, profilaktik tədbirlərin keyfiyyətinin və həmin tədbirləri icra edənlərin peşəkarlığının artırılması üçün müvafiq tədbirlər görülmüşdür. Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə, eyni zamanda ölkəmizin regionda sosial və təhlükəsizlik siyasətinin prioritetlərindən olmuşdur.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və torpaqlarımızın işğalı nəticəsində Azərbaycanın İranla dövlət sərhədinin 132 kilometrlik hissəsi nəzarətsiz zonaya çevrilmişdir ki, həmin ərazilərdən də Avropaya və digər ölkələrə güclü narkotik axını həyata keçirilirdi. İşğal olunmuş torpaqlarımızda ermənilər tərəfindən narkotik tərkibli bitkilərin becərilməsi, yeni növ narkotiklərin sintezi üzrə laboratoriyaların açılması, narkotiklərin istehsalı və tranzit bazasının yaradılması, onun satışından əldə edilən külli miqdarda gəlirdən yeni silahların alınması, terrorçu qrupların yaradılması və onlara təlimlər keçirilərək digər münaqişə zonalarına istiqamətləndirilməsi təhlükənin miqyasını daha da artırırdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin düşünülmüş və uğurlu siyasəti nəticəsində İkinci Qarabağ müharibəsinin Azərbaycanın möhtəşəm Qələbəsi ilə başa çatması, işğal edilmiş torpaqlarımızın otuz ildən sonra geri qaytarılması xalqımızın tarixinin ən şərəfli səhifələrindəndir. Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti, sərkərdəlik bacarığı və Ordumuzun qəhrəmanlığı sayəsində Azərbaycan məğlub ölkədən qalib ölkəyə çevrildi. Qarabağ münaqişəsinin ədalətli həlli 2020-ci ilin başlıca hadisəsi kimi tarixə düşdü. Bütün dünya Azərbaycan dövlətinin gücünün, onun Silahlı Qüvvələrinin qüdrətinin, xalqımızın qəhrəmanlıq əzminin şahidi oldu.

Azərbaycan güc yolu ilə işğal olunmuş ərazilərimizi azad etməklə, tarixi hüquqi ədaləti bərpa etdi. İranla dövlət sərhədinin on illərdir düşmən nəzarətində olan 132 kilometrlik hissəsinin tamamən sərhədçilərimizin nəzarətinə keçməsi şübhəsiz ki, olduqca mühüm hərbi, iqtisadi və siyasi nəticələrə gətirib çıxaracaqdır.

Beləliklə, narkomaniya ilə mübarizənin məhz dövlət və ümummilli siyasət səviyyəsinə qaldırılması, ölkəmizdə narkomaniyanın profilaktikasına və qarşısının alınmasına son dərəcə ciddi əhəmiyyət verilməsi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin narkotizmin hər cür təzahürünə qarşı prinsipial mövqeyi, bu sahədə dövlət və hüquq mühafizə orqanlarından konkret nəticələrin tələb edilməsi gənc nəslin sağlam və yüksək ideyalar ruhunda tərbiyəsi, genefondumuzun qorunması istiqamətində ciddi tədbirlər görüləcəyinə əminlik yaradır.

**Əli Əhmədov**

**Azərbaycan Respublikası Baş nazirinin müavini,**
**Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri**

# NORMATİV HÜQUQİ BAZANIN TƏKMİLLƏŞDİRİLMƏSİ

## NORMATİV HÜQUQİ BAZANIN TƏKMİLLƏŞDİRİLMƏSİ

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.2.1-ci yarımbəndinə uyğun olaraq, hesabat dövründə müvafiq sahədə normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər görülərək, "Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 960-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların siyahıları"nda dəyişikliklər edilməsi haqqında" və "Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 961-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıları"nda dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası qanunlarının layihələri hazırlanmış və 2020-ci il 31 avqust tarixində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilmişdir.

Tədbirlər Planının 4.2.4-cü yarımbəndinə uyğun olaraq, normativ hüquqi aktlarda əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar tərəfindən şəxsin üzərində hər hansı qanunsuz saxlanılan əşyanın aşkar edilib götürülməsinin prosedur qaydalarını müəyyənləşdirmək məqsədilə "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsi hazırlanaraq 2020-ci il 14 noyabr tarixində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilmişdir.

Bundan əlavə, Tədbirlər Planının 4.2.5-ci yarımbəndinə əsasən, narkomanlığın erkən müəyyən edilməsi və profilaktikası məqsədilə çağırışçıların və həqiqi hərbi xidmət keçən hərbi qulluqçuların icbari narkoloji müayinədən keçirilməsi ilə bağlı "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında". "Narkoloji xidmət və nəzarət haqqında" və "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi üçün aidiyyəti dövlət qurumlarının rəy və təklifləri nəzərə alınmaqla, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində müvafiq qanun layihələri hazırlanmış və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir. Azərbaycan Respublikasının Nazirlər Kabinetində həmin layihələrin təkmilləşdirilməsi təmin edilərək, yekun rəyin verilməsi üçün layihələr aidiyyəti dövlət orqanlarına göndərilmişdir. Hazırda həmin layihələrə aidiyyəti dövlət orqanlarında baxılır.

# HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Hüquq mühafizə orqanları tərəfindən müasir telekommunikasiya və informasiya vasitələrinin imkanlarından istifadə edilməklə, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz idxal-ixrac və tranzit daşıma marşurutları təhlil edilmiş və həmsərhəd dövlətlərdəki narkoşəraitin ölkədaxili vəziyyətə təsiri nəzərə alınaraq adekvat tədbirlər görülmüş, həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının ölkə ərazisinə qaçaqmalçılıq yolu ilə gətirilməsinin qarşısının alınması üçün bir sıra qabaqlayıcı profilaktik və əməliyyat-axtarış tədbirləri həyata keçirilmişdir.

2020-ci il ərzində Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti və Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən narkotiklərin qanunsuz dövriyyəsi üzrə ümumilikdə 5221 fakt aşkar edilmişdir. Aşkar edilmiş faktlardan 1893-ü narkotik vasitələrin qanunsuz satışı, 2903-ü narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 323-ü qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 102-si isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olmuşdur.

### 2020-Cİ İL ƏRZİNDƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİ ÜZRƏ QEYDƏ ALINMIŞ CİNAYƏT FAKTLARI




Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 4 ton 041 kq 592,2 qr narkotik vasitələrin və psixotrop maddələrin 2 ton 374 kq 323,6 qr-nı heroin, 919 kq 272,9 qr-nı marixuana, 304 kq 513,7 qr-nı tiryək, 90 kq 426,9 qr-nı həşiş, 1 kq 435,3 qr-nı kokain, 57 kq 709 qr-nı metamfetamin və 147 kq 933 qr-nı digər narkotik vasitələr, 145 kq 977,8 qr-nı isə psixotrop maddələr təşkil etmişdir. Həmçinin göstərilən dövr ərzində 7 kq 248,2 qr prekursorlar, 9 kq 011,4 qr güclü təsir edən maddələr, 18 kq 049,1 qr zəhərli maddələr qanunsuz dövriyyədən götürülmüşdür.

## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

### 2019-2020-ci illərdə qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr və psixotrop maddələr

| | 2019-cu il | 2020-ci il | FƏRQ |
|---|---|---|---|
| CƏMİ | 3 ton 508 kq 715,1 qr | 4 ton 041 kq 592,2 qr | +532 kq 877,1 qr |
| MARİXUANA | 820 kq 979,4 qr | 919 kq 272,9 qr | +98 kq 293,5 qr |
| HƏŞİŞ | 27 kq 831,3 qrr | 90 kq 426,9 qr | +62 kq 595,6 qr |
| TİRYƏK | 332 kq 674,9 qr | 304 kq 513,7 qr | -28 kq 161,2 qr |
| HEROİN | 2 ton 091 kq 016,4 qr | 2 ton 374 kq 323,6 qr | +283 kq 307,2 qr |
| KOKAİN | 4 kq 009 qr | 1 kq 435,3 qr | -2 kq 573,7 qr |
| PSİXOTROP MADDƏLƏR VƏ DİGƏRLƏRİ | 232 kq 674,9 qr | 351 kq 619,8 qr | +118 kq 944,9 qr |

### 2020-Cİ İL ƏRZİNDƏ QANUNSUZ DÖVRİYYƏDƏN GÖTÜRÜLMÜŞ NARKOTİK VASİTƏLƏR VƏ PSİXOTROP MADDƏLƏR







2020-ci il ərzində hüquq-mühafizə orqanları tərəfindən qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr və psixotrop maddələr

DİN DGK
DTX DSX

## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Ötən il ərzində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 4233 nəfər cəlb edilmişdir ki, onlardan 16-18 yaşadək 5 nəfər, 18-25 yaşadək 321 nəfər, 26-29 yaşadək 738 nəfər, 30 yaş və ondan yuxarı isə 3169 nəfər təşkil edir. Həmin şəxslərdən 4150-si kişi, 83-ü qadın olmuşdur.Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 75 nəfəri xarici ölkə vətəndaşlarıdır.

**2020-ci il ərzində narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə görə cinayət məsuliyyətinə cəlb olunanların yaş qrupları**



## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

**2019/2020-ci illər ərzində cinayət məsuliyyətinə cəlb olunanlar barədə müqayisəli məlumat**

| | | | | |
|---|---|---|---|---|
| 1. | Cəmi cəlb olunub: | 3487 | 4233 | +746 |
| 2. | 16-18 yaşadək | 14 | 5 | -9 |
| 3. | 18-25 yaşadək | 280 | 321 | +41 |
| 4. | 26-29 yaşadək | 537 | 738 | +201 |
| 5. | 30 yaş və ondan yuxarı | 2656 | 3169 | +513 |
| 6. | Fəhlə | 260 | 155 | -105 |
| 7. | Qulluqçu | 6 | 10 | +4 |
| 8. | Vəzifəli və ya maddi məsul şəxs | 4 | 5 | +1 |
| 9. | Nəqliyyat işçisi | 2 | 3 | +1 |
| 10. | Kənd təsərrüfatı işçisi | 13 | 7 | -6 |
| 11. | Orta məktəb şagirdi | 2 | - | -2 |
| 12. | Kollec tələbəsi | 1 | - | -1 |
| 13. | İşləməyən və oxumayan | 2436 | 3000 | +564 |
| 14. | Kişilər | 3389 | 4150 | +761 |
| 15. | Qadınlar | 98 | 83 | -15 |
| 16. | Xarici ölkə vətəndaşları | 99 | 75 | -24 |
| 17. | Əvvəllər cinayət törətmişlər | 906 | 1245 | +339 |
| 18. | Əvvəllər xüsusi qeydiyyatda olmuşlar | 7 | 22 | +15 |

## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Məsuliyyətə cəlb edilmiş 75 xarici ölkə vətəndaşından 39-u İran İslam Respublikası, 11-i Gürcüstan, 18-i Rusiya, 3-ü Qazaxıstan, 2-si Türkiyə, 1-i Pakistan və 1-i Ukrayna vətəndaşları olmuşdur.




Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı aşkar edilmiş 4974 fakt üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 2 ton 010 kq 134 qr narkotik vasitə və psixotrop maddə (864 kq 295,7 qr marixuana, 699 kq 468,6 qr heroin, 69,4 qr kokain, 139 kq 715,4 qr tiryək, 21 kq 549,7 qr həşiş, 147 kq 930,4 qr digər narkotik vasitələr, 137 kq 104,8 qr psixotrop maddə), habelə 1 kq 970,4 qr güclü təsir edən maddələr və 2 kq 209,1 qr zəhərli maddələr çıxarılmış, qanunsuz əkilib-becərilmiş çəkisi 9 ton 555 kq çətənə və 1 kq 700 qr xaş-xaş bitkiləri müəyyən edilərək, müvafiq tədbirlər görülməsi üçün istintaq orqanlarına verilmişdir.





Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən aşkar edilmiş 110 fakt üzrə qanunsuz dövriyyədən çəkisi 1 ton 483 kq 255,9 qr narkotik vasitə və psixotrop maddə (1 ton 430 kq 538,4 qr heroin, 36 kq 702,7 qr tiryək, 1 kq 365,9 qr kokain, 5 kq 909, 5 qr həşiş, 1 kq 169,7 qr marixuana, 7 kq 569,7 qr psixotrop maddə), habelə 7 kq 041 qr güclü təsir edən maddə, 15 kq 840 qr zəhərli maddə, 7 kq 248,2 qr prekursorlar çıxarılmışdır.

## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR





Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən aşkar edilmiş 13 fakt üzrə qanunsuz dövriyyədən 99 kq 891,77 qr narkotik vasitə (60 kq 089,5 qr heroin, 13 kq 149,8 qr tiryək, 3 kq 801,6 qr marixuana, 22 kq 850, 87 qr metamfetamin) müsadirə edilmişdir.





Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən 57 fakt üzrə qanunsuz dövriyyədən çəkisi 448 kq 175,2 qr narkotik vasitə və psixotrop maddə (184 kq 186,3 qr heroin, 114 kq 940,1 qr tiryək, 49 kq 953,9 qr marixuana, 62 kq 967 qr həşiş, 34 kq 824,6 qr metamfetamin, 1 kq 303,3 qr psixotrop maddə) çıxarılmışdır.

Bununla yanaşı, Xidmət tərəfindən 31 hektar sahədə yaş kütləsi 18 ton 472 kq olan 184150 ədəd yabanı halda bitmiş narkotik xassəli çətənə və xaş-xaş bitkiləri müəyyən edilərək müvafiq qaydada məhv edilmişdir.





## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən aşkar edilmiş 67 fakt üzrə qanunsuz dövriyyədən çəkisi 135,39 qr narkotik vasitə (40,811 qr heroin, 0,781 qr həşiş qətranı, 5,729 qr tiryək, 52,009 qr marixuana, 0,017 qr fubinaka, 1,125 qr tramadol, 0,36 qr metadon, 33,54 qr metamfetamin, 0,9 qr preqabalin, 0,009 qr MTFEM, 0,075 qr MDMB 4 en Pinaka, 0,004 qr Alprazolam, 0,030 qr Zopiklon) çıxarılmışdır.




## 2020-Cİ İLDƏ EKSPERTİZA OLUNAN NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN NÖVÜ VƏ ÇƏKİSİ BARƏDƏ

**MƏLUMAT**

| № | Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları | sayı | çəkisi |
|---|---|---|---|
| 1. | Marixuana | 1595 | 954 kq 653,949 qr |
| 2. | Həşiş qətranı | 62 | 142 kq 626,083 qr |
| 3. | Çətənə (kannabis) | 452 | 10 t 165 kq 539,05 qr |
| 4. | Xaş-xaş bitkisi | 2 | 7 kq 540 qr |
| 5. | Xaş-xaş kütləsi | - | - |
| 6. | Sintetik kannabinoidlər (spice) | - | 90,655 qr |
| 7. | Heroin | 3044 | 2 t 370 kq 872,103 qr |
| 8. | Tiryək | 307 | 237 kq 908 qr |
| 9. | Metadon | 64 | 1 kq 709,738 qr |
| 10. | Metamfetamin | 752 | 199 kq 661,018 qr |
| 11. | Kokain | 9 | 1 kq 342,715 qr |
| 12. | MDA, MDMA (ekstrazi) | 25 | 1 kq 430,987 qr |
| 13. | Zəhərli maddə | 13 | 3 kq 608,641 qr |
| 14. | Prekursor | 8 | 98,268 qr |
| 15. | Farmpreparatlar:<br>- psixotrop və güclü təsir edən dərman preparatları<br>- digər dərman preparatlar | 136<br>88 | Psix: 21,425 qr<br>GTE: 8 kq 399,249 qr |
| 16. | Yeni psixoaktiv maddələr YPM:<br>(a- PVP, MDMB 4-en PİNAKA) | 3 | 0,153 qr |
| 17. | digər maddələr | 50 | müvafiq siyahılara daxil edilmədiyi üçün bu maddələrin çəkisi və ya sayı üzrə qeydiyyat aparılmamışdır. |

Qeyd: Ekspertiza olunan narkotik vasitələrin və psixotrop maddələrin sayı, növü, miqdarı və çəkisi barədə digər məlumatlar Daxili İşlər Nazirliyinin müvafiq qurumu tərəfindən ekspertizadan keçirilmişdir.

## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Hesabat dövründə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 2513,5 hektar sahədən çəkisi 153 ton 101 kq olan 414864 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilmişdir.









2020-ci il ərzində hüquq mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 258 fakt aşkar edilmiş (DİN-79, DGK-109, DTX-13, DSX-57) və həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 2 ton 367 kq 248,37 qr müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr (DİN-338 kq 481,4 qr, DGK-1 ton 480 kq 700 qr, DTX-99 kq 891,77 qr, DSX-448 kq 175,2 qr) çıxarılmışdır.

Ümumilikdə, aşkar edilmiş cinayətlərin 402-si qrup halında (DİN-359, DTX-12, DSX-19, DGK-12) törədilmiş və həmin faktlar üzrə qanunsuz dövriyyədən çəkisi 1 ton 390 kq 395,77 qr (DİN-833 kq 105,2 qr, DGK-296 kq 638 qr, DTX-99 kq 809,67 qr, DSX-160 kq 842,9 qr) narkotik vasitələr və psixotrop maddələr müsadirə edilmişdir.

# HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

## QAÇAQMALÇILIQ VƏ QRUP HALINDA AŞKAR EDİLMİŞ CİNAYƏTLƏR

| 2020 | Qaçaqmalçılıq yolu ilə aşkar edilmiş faktlar | Qrup halında aşkar edilmiş faktlar |
|---|---|---|
| Daxili İşlər Nazirliyi | 79 fakt | 359 fakt |
| Dövlət Gömrük Komitəsi | 109 fakt | 12 fakt |
| Dövlət Təhlükəsizliyi Xidməti | 13 fakt | 12 fakt |
| Dövlət Sərhəd Xidməti | 57 fakt | 19 fakt |
| CƏMİ | 258 fakt | 402 fakt |

Təhlil göstərir ki, 2019-cu illə müqayisədə ötən il ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq mühafizə orqanları tərəfindən aşkar edilən faktların sayı 685, qanunsuz satışı ilə bağlı faktların sayı 174, satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 417, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı 55, bu kateqoriyadan olan digər cinayətlərlə bağlı faktların sayı isə 39 vahid artmışdır.

## 2019/2020-Cİ İLLƏR ƏRZİNDƏ ÖLKƏ ÜZRƏ NARKOTİKLƏRLƏ ƏLAQƏLİ AŞKAR OLUNAN FAKTLARLA BAĞLI MÜQAYİSƏLİ MƏLUMAT

| | 2019-cu il | 2020-ci il | FAKT | %-lə |
|---|---|---|---|---|
| CƏMİ | 4536 | 5221 | +685 | +13,1 |
| SATIŞ | 1719 | 1893 | +174 | +9,2 |
| SAXLAMA | 2486 | 2903 | +417 | +14,4 |
| ƏKİN | 268 | 323 | +55 | +17 |
| DİGƏRLƏRİ | 63 | 102 | +39 | +38,2 |

## 2019/2020-Cİ İLLƏR ƏRZİNDƏ HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN AŞKAR EDİLMİŞ FAKTLARLA BAĞLI MÜQAYİSƏLİ MƏLUMAT

| | 2019-cu il | 2020-ci il | FAKT |
|---|---|---|---|
| CƏMİ | 4536 | 5221 | +685 |
| Daxili İşlər Nazirliyi | 4006 | 4974 | +968 |
| Dövlət Gömrük Komitəsi | 366 | 110 | -256 |
| Dövlət Təhlükəsizliyi Xidməti | 16 | 13 | -3 |
| Dövlət Sərhəd Xidməti | 78 | 57 | -21 |
| Ədliyyə Nazirliyinin Penitensiar Xidməti | 70 | 67 | -3 |

## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Həmçinin, qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin çəkisi 532 kq 877 qr, yabanı halda müəyyən edilmiş narkotik xassəli bitkilərin yaş kütləsi 26 ton 256 kq, məsuliyyətə cəlb edilmiş şəxslərin sayı isə 746 nəfər artmışdır.

Narkotiklərin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı faktların sayı 259 fakt, məsuliyyətə cəlb edilmiş xarici ölkə vətəndaşlarının sayı 24, 16-18 yaşadək olanların sayı 9, qadınların sayı 15 nəfər azalmışdır.

### NARKOTİK VASİTƏLƏRİN YENİ "QARABAZAR" QİYMƏTİ

| Narkotik vasitələrin 1 kq dəyəri AZN ilə (minimum/maksimum) | | | |
|---|---|---|---|
| | 01.01.2021-ci il tarixə olan vəziyyət | | |
| | | minumum | maksimum |
| Topdan | Tiryək | 3000 | 3500 |
| | Heroin | 15000 | 20000 |
| | Marixuana | 6000 | 10000 |
| | Həşiş | 2500 | 3000 |
| | Kokain | 200000 | 200000 |
| Pərakəndə | Tiryək | 7000 | 10000 |
| | Heroin | 30000 | 45000 |
| | Marixuana | 25000 | 30000 |
| | Həşiş | 4000 | 5000 |
| | Kokain | 200000 | 200000 |

### 2015-2020-Cİ İLLƏR ƏRZİNDƏ HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN KEÇİRİLMİŞ ƏMƏLİYYAT-AXTARIŞ TƏDBİRLƏRİ

2015-2020-ci illər ərzində Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Sərhəd Xidməti tərəfindən ümumilikdə 14 ton 583 kq 507 qr müxtəlif növ narkotik vasitələr qanunsuz dövriyyədən çıxarılmışdır.

**2015-2020-ci illər ərzində hüquq-mühafizə orqanları tərəfindən qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr və psixotrop maddələr**



## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Son 6 il ərzində müsadirə olunan narkotik vasitələrin və psixotrop maddələrin 4 ton 518 kq 442 qr-nı marixuana (30,9%), 1 ton 717 kq 063 qr-nı tiryək (11,78%), 7 ton 148 kq 510 qr-nı heroin (49%), 309 kq 236 qr-nı həşiş (2,12%), 885 kq 544 qr-nı digərləri (6%), 5 kq 522 qr-nı kokain (0,04%) təşkil etmişdir.

### 2015-2020-ci illər ərzində qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr və psixotrop maddələr




Ümumilikdə, hesabat dövri ərzində (2015-2020) hüquq mühafizə orqanları tərəfindən 21670 fakt aşkar edilmişdir ki, onlardan 6313-ü narkotik vasitələrin qanunsuz satışı, 13545-i narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 1478-i qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 334-ü isə digərləri olmuşdur.

### 2015-2020-ci illər ərzində narkotik vasitələrlə bağlı qeydiyyata alınmış cinayət faktları



# DÜNYADA NARKOTİKLƏRLƏ BAĞLI VƏZİYYƏTƏ DAİR TƏHLİL



## DÜNYADA NARKOTİKLƏRLƏ BAĞLI VƏZİYYƏTƏ DAİR TƏHLİL

Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq İdarəsi tərəfindən illik əsasda hazırlanan Ümumdünya Narkotiklər Hesabatının 2020-ci ildə nəşr edilmiş buraxılışına əsasən 2019-cu ildə tiryək istehsalında əvvəlki illə müqayisədə ciddi dəyişiklik qeydə alınmamış və 7610 ton səviyyəsində olmuşdur. Bu göstərici BMT tərəfindən tiryək istehsalının sistemli monitorinqi aparılan son dekadalar çərçivəsində qeydə alınmış ən yüksək (2017-ci ildə 10270 ton) statistikadan 26% aşağıdır.

Qeyd olunan tiryək istehsalında ən böyük pay sahibləri ötən ildə də olduğu kimi Əfqanıstan, Meksika və Myanma kimi ölkələrdir. Təkcə Əfqanıstanın üzərinə 2019-cu ildə dünyada istehsal edilmiş tiryəkin 84%-i düşür. Meksika və Myanma üçün eyni göstəricilər üçün eyni göstəricilər müvafiq olaraq 6% və 7% təşkil edir.

BMT tərəfindən monitorinq aparılmış son illər ərzində dünyada kokain istehsalında tiryəkdən fərqli olaraq ciddi artım tempi müşahidə olunmaqdadır. Kokain istehsalı 2018-ci ildə 1723 ton səviyyəsində müəyyən edilmişdir. Dünyada kokain istehsalının ən böyük pay Latın Amerika ölkələri, xüsusilə Kolumbiya olmaqda davam edir.

Kannabis əkilən narkotik üzrə ən geniş istehsal coğrafiyasına malik olmaqda davam edir. 2010-2018-ci illər ərzində BMT-yə 150-dən çox ölkə kannabis istehsalı barədə məlumat vermişdir ki, bu da dünya əhalisinin 96%-ni özündə cəmləşdirir.

Ümumiyyətlə, 2018-ci il üçün aparılmış hesablamalara əsasən planetimizdə 15-64 yaş arası 269 milyon insan son bir il ərzində narkotik vasitədən istifadə etmişdir və bu da həmin yaş arası ümumdünya əhalisinin təqribən 5,4%-ni təşkil edir.

Nəzərə alsaq ki, 2009-cu ildə narkotik istifadəçilərinin təqribi sayı 210 milyon təşkil edirdi, 2009-2018-cu illər ərzində istifadəçi artımı 28% səviyyəsində müəyyən edilir. Bu artım daha çox planetimizdəki ümumi sakinlərin sayındakı artımla əlaqəli olsa da, narkotik istifadəçilərin sayının ümumdünya əhalisinə faiz nisbətində də artımı müşahidə edilmişdir. Belə ki, 2009-cu ildə həmin göstərici 4,8% səviyyəsində olmuşdur.

2018-ci ildə araşdırmalara əsasən kannabis ən çox istifadə olunan narkotik vasitə olaraq qalmaqdadır. Yuxarıda qeyd olunan 269 milyon istifadəçi statistikasının 192 milyonu məhz kannabisin üzərinə düşür.

Son bir ildə 72 adda sintetik tərkibli yeni növ narkotik istehsal edilərək dövriyyəyə buraxılmışdır.

Ümumdünya Səhiyyə Təşkilatının hesabatına görə bir ildə narkoistifadədən ölənlərin sayı 450 minə çatmışdır.

Avropa Birliyi ölkələrində narkotiklərin qeyri-qanuni satışından əldə olunan gəlirlər ildə təxminən 24 milyard avro təşkil edir. Bu, Avropada cinayət fəaliyyətindən əldə olunan ən böyük gəlirdir.

Beynəlxalq Narkotiklərə Nəzarət İdarəsinin məlumatına görə Avropa Birliyi sakinlərinin dörddə birindən çoxu qeyri-qanuni olaraq narkotiklərdən istifadə etmişdir.

# NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ, MÜALİCƏSİ, SOSİAL ADAPTASİYASI VƏ BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

## NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ, MÜALİCƏSİ, SOSİAL ADAPTASİYASI VƏ BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 27201 nəfər istiqamətləndirilmişdir. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 5010 nəfərindən 2971-nin istifadəçi olması müəyyən edilmiş və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilmişdir. Hesabat dövründə 4498 nəfər stasionar müalicədə olmuşdur. Hazırda metadonla əvəzedici müalicə proqramı üzrə 3 məntəqədə 734 xəstə müalicə alır.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin məlumatına əsasən 2020-ci il 31 dekabr tarixinə respublika üzrə narkomanlıq diaqnozu ilə qeydiyyatda olanların sayı 33788 nəfər təşkil etmişdir. Həmin şəxslərdən 28318 nəfəri dispanser, 5470 nəfəri profilaktik qeydiyyatda olanlardır.

Onlardan 618 nəfəri qadındır. 23537 nəfər opioid qrupuna aid narkotik istifadəçiləri, 10251 nəfər kannabinoid qrupuna aid narkotik istifadəçiləridir. 2020-ci ildə müvafiq diaqnozla 2723 nəfər qeydiyyata götürülmüş, 1856 nəfər isə qeydiyyatdan çıxarılmışdır.

| Ümumi qeydiyyatda olan narkotik istifadəçilərinin sayı | Dispanser qeydiyyatında olanlar | Profilaktik qeydiyyatda olanlar | Anonim müalicə olunanlar |
|---|---|---|---|
| 33788 nəfər | 28318 nəfər | 5470 nəfər | 1076 nəfər |
| 33788 nəfər narkotik istifadəçilərinin qəbul etdikləri narkotiklərin növü | Opioid qrupuna aid narkotik vasitələri qəbul edənlərin sayı 23537 nəfərdir | Kannobinoid qrupuna aid narkotik vasitələri qəbul edənlərin sayı 10251 nəfərdir | – |
| Qeydiyyatda olan qadınların sayı 618 nəfər | 473 nəfər | 145 nəfər | – |
| Eyni zamanda bir neçə narkotik maddə qəbul edənlərin sayı 785 nəfər | 785 nəfər | – | – |
| Ötən il qeydiyyata götürülənlərin sayı 2723 nəfər | 2340 nəfər | 383 nəfər | – |
| Qeydiyyatdan çıxarılanların sayı 1856 nəfər | 1596 nəfər | 260 nəfər | – |

## NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ, MÜALİCƏSİ, SOSİAL ADAPTASİYASI VƏ BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

### Respublika Narkoloji Mərkəzində qeydiyyatda olan narkomanlar




### Yaş qrupları üzrə



## QEYDİYYATDA OLAN NARKOTİK İSTİFADƏÇİLƏRİN YAŞ QRUPLARI

| YAŞ QRUPLARI ÜZRƏ QEYDİYYATDA OLANLAR | DİSPANSER QEYDİYYATDA OLANLAR | PROFİLAKTİK QEYDİYYATDA OLANLAR |
|---|---|---|
| 15-17 yaş - 9 nəfər | 6 nəfər | 3 nəfər |
| 18-24 yaş - 2242 nəfər | 1845 nəfər | 397 nəfər |
| 25-29 yaş - 5403 nəfər | 4487 nəfər | 916 nəfər |
| 30-34 yaş - 5324 nəfər | 4434 nəfər | 890 nəfər |
| 35-39 yaş - 5597 nəfər | 4679 nəfər | 918 nəfər |
| 40-44 yaş - 4600 nəfər | 3850 nəfər | 750 nəfər |
| 45-49 yaş - 3904 nəfər | 3263 nəfər | 641 nəfər |
| 50-54 yaş - 3232 nəfər | 2739 nəfər | 493 nəfər |
| 55-59 yaş - 2003 nəfər | 1730 nəfər | 273 nəfər |
| 60-64 yaş - 1267 nəfər | 1124 nəfər | 143 nəfər |
| 65 yaş və yuxarı - 207 nəfər | 161 nəfər | 46 nəfər |

## QEYDİYYATDA OLAN NARKOTİK İSTİFADƏÇİLƏRİNİN SAYI VƏ ONLARIN QƏBUL ETDİYİ NARKOTİK VASİTƏLƏRİN NÖVÜ

| | Şəhər və rayonlar | Qeydiyyatda olan narkotik istifadəçiləri | Opioid qrupuna aid narkotik vasitələr qəbul edənlər | Kannabinoid qrupuna aid narkotik vasitələr qəbul edənlər |
|---|---|---|---|---|
| 1 | Bakı şəhəri | 12154 | 9879 | 2275 |
| 2 | Lənkəran şəhəri | 2630 | 2182 | 448 |
| 3 | Sumqayıt şəhəri | 2264 | 1877 | 387 |
| 4 | Salyan rayonu | 1261 | 849 | 412 |
| 5 | Şirvan şəhəri | 981 | 609 | 372 |
| 6 | Abşeron rayonu | 712 | 503 | 209 |
| 7 | Cəlilabad rayonu | 695 | 554 | 141 |
| 8 | Gəncə şəhəri | 637 | 306 | 331 |
| 9 | Sabirabad rayonu | 636 | 225 | 411 |
| 10 | Digər şəhər və rayonlar | 11818 | 6553 | 5265 |
| CƏMİ | | 33788 | 23537 | 10251 |

# NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ, MÜALİCƏSİ, SOSİAL ADAPTASİYASI VƏ BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

## 2010-2020-Cİ İLLƏR ƏRZİNDƏ RESPUBLİKA NARKOLOJİ MƏRKƏZİNDƏ QEYDİYYATDA OLAN NARKOTİK İSTİFADƏÇİLƏRİ




2020-ci ildə Azərbaycanda 547 nəfər İnsan immunçatışmazlığı virusuna (İİV) yoluxmuşdur. Bütövlükdə 1988-ci ildən 2020-ci il dekabr ayının sonunadək Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika QİÇS-lə Mübarizə Mərkəzində İİV diaqnozu təsdiq olunmuş 8688 nəfər qeydiyyata götürülmüşdür (8395-i Azərbaycan vətəndaşı, 293-ü əcnəbi). İİV-ə yoluxanların 6231-i kişi, 2457-si qadındır. Onlardan 3380-də İİV-ə yoluxma inyeksion narkotik istifadəsi nəticəsində baş vermişdir. Həmin kateqoriyadan olan şəxslərin 2679 nəfəri hazırda dispanser qeydiyyatındadır.

## 1988-31.12.2020-Cİ İL TARİXƏDƏK AZƏRBAYCANDA İİV-Ə YOLUXMUŞ ŞƏXSLƏRİN YOLUXMA YOLLARI ÜZRƏ BÖLÜNMƏSİ



## NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ, MÜALİCƏSİ, SOSİAL ADAPTASİYASI VƏ BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

### 2020-ci il ərzində Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yoluxma yolları üzrə bölünməsi




*Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yaş qrupu və cinsi mənsubiyyəti üzrə bölünməsi (1988-31.12.2020)*

| YAŞ QRUPU | Azərbaycan vətəndaşları | | | | | | Əcnəbilər | | | | | | Cəmi İİV-ə yoluxmuş şəxslər | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | | Kişi | | Qadın | | Cəmi | | Kişi | | Qadın | | Cəmi | | Kişi | | Qadın | |
| | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % |
| 0–14 | **154** | 1,8% | **75** | 0,9% | **79** | 0,9% | **2** | 0,7% | | | **2** | 0,7% | **156** | 1,8% | **75** | 0,9% | **81** | 0,9% |
| 15–18 | **34** | 0,4% | **11** | 0,1% | **23** | 0,3% | | | | | | | **34** | 0,4% | **11** | 0,1% | **23** | 0,3% |
| 19–24 | **689** | 8,2% | **334** | 4,0% | **355** | 4,2% | **34** | 11,6% | **15** | 5,1% | **19** | 6,5% | **723** | 8,3% | **349** | 4,0% | **374** | 4,3% |
| 25–29 | **1408** | 16,8% | **949** | 11,3% | **459** | 5,5% | **51** | 17,4% | **34** | 11,6% | **17** | 5,8% | **1459** | 16,8% | **983** | 11,3% | **476** | 5,5% |
| 30–39 | **3315** | 39,5% | **2523** | 30,1% | **792** | 9,4% | **100** | 34,1% | **67** | 22,9% | **33** | 11,3% | **3415** | 39,3% | **2590** | 29,8% | **825** | 9,5% |
| 40–49 | **1987** | 23,7% | **1573** | 18,7% | **414** | 4,9% | **69** | 23,5% | **62** | 21,2% | **7** | 2,4% | **2056** | 23,7% | **1635** | 18,8% | **421** | 4,8% |
| 50–59 | **617** | 7,3% | **426** | 5,1% | **191** | 2,3% | **25** | 8,5% | **20** | 6,8% | **5** | 1,7% | **642** | 7,4% | **446** | 5,1% | **196** | 2,3% |
| 60 ≤ | **116** | 1,4% | **77** | 0,9% | **39** | 0,5% | **7** | 2,4% | **6** | 2,0% | **1** | 0,3% | **123** | 1,4% | **83** | 1,0% | **40** | 0,5% |
| Naməlum | **75** | 0,9% | **54** | 0,6% | **21** | 0,3% | **5** | 1,7% | **5** | 1,7% | | | **80** | 0,9% | **59** | 0,7% | **21** | 0,2% |
| Cəmi | 8395 | 100% | 6022 | 71,7% | 2373 | 28,3% | 293 | 100% | 209 | 71,3% | 84 | 28,7% | 8688 | 100% | 6231 | 71,7% | 2457 | 28,3% |

*Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yoluxma yolları üzrə bölünməsi (1988-31.12.2020)*

| | Yoluxma yolları | *Azərbaycan vətəndaşları* | | | | | | *Əcnəbilər* | | | | | | *Cəmi İİV-ə yoluxmuş şəxslər* | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | | Kişi | | Qadın | | Cəmi | | Kişi | | Qadın | | Cəmi | | Kişi | | Qadın | |
| | | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % |
| **Parenteral yolla** | inyeksion narkotik istifadəsi | 3316 | 39,5% | 3249 | 38,7% | 67 | 0,8% | 64 | 21,8% | 55 | 18,8% | 9 | 3,1% | 3380 | 38,9% | 3304 | 38,0% | 76 | 0,9% |
| | Donor qanı | 1 | 0,0% | 0 | 0,0% | 1 | 0,0% | | | 0 | | | | 1 | 0,0% | 0 | | 1 | 0,0% |
| | Cəmi : | **3317** | 39,5% | 3249 | 38,7% | **68** | 0,8% | **64** | 21,8% | 55 | 18,8% | **9** | 3,1% | **3381** | 39% | **3304** | 38,0% | **77** | 0,9% |
| **Cinsi yolla** | heteroseksual kontakt | 4156 | 49,5% | 2028 | 24,2% | 2128 | 25,3% | 169 | 57,7% | 100 | 34,1% | 69 | 23,5% | 4325 | 49,8% | 2128 | 24,5% | 2197 | 25,3% |
| | homoseksual kontakt | 302 | 3,6% | 301 | 3,6% | 1 | 0,0% | 8 | 2,7% | 8 | 2,7% | | | 310 | 3,6% | 309 | 3,6% | 1 | 0,0% |
| | Cəmi : | **4458** | 53,1% | **2329** | 27,7% | **2129** | 25,4% | **177** | 60,4% | 108 | 36,9% | **69** | 23,5% | **4635** | 53,3% | **2437** | **28%** | **2198** | 25,3% |
| Anadan uşağa ötürülmə | | 132 | 1,6% | 66 | 0,8% | 66 | 0,8% | 2 | 0,7% | 0 | 0,0% | 2 | 0,7% | 134 | 1,5% | 66 | 0,8% | 68 | 1% |
| Naməlum | | 488 | 5,8% | 378 | 4,5% | 110 | 1,3% | 50 | 17,1% | 46 | 15,7% | 4 | 1,4% | 538 | 6,2% | 424 | 4,9% | 114 | 1,3% |
| Cəmi : | | **8395** | **100%** | **6022** | **71,7%** | **2373** | **28,3%** | **293** | **100%** | **209** | **71,3%** | **84** | **28,7%** | **8688** | **100%** | **6231** | **71,7%** | **2457** | **28,3%** |

NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ, MÜALİCƏSİ, SOSİAL ADAPTASİYASI VƏ BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

*2020-ci ilin sonuna Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yoluxma yolları üzrə bölünməsi:*

| YOLUXMA YOLU | *Cəmi İİV-ə yoluxanlar* | | | | *Onlardan Azərbaycan vətəndaşları* Cəmi | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Say | onlardan qadınlar | ümumi saydan 15-49 yaşda | 15-49 yaşda qadınlar | Say | onlardan qadınlar | ümumi saydan 15-49 yaşda | 15-49 yaşda qadınlar |
| anadan uşağa ötürülməklə | 2 | | | | 2 | | | |
| heteroseksual kontakt nəticəsində | 403 | 166 | 329 | 124 | 391 | 162 | 318 | 120 |
| homoseksual kontakt nəticəsində | 56 | | 56 | | 56 | | 56 | |
| yoluxma yolu naməlum | 9 | 2 | 6 | 2 | 9 | 2 | 6 | 2 |
| inyeksiyon narkotik istifadəsi nəticəsində | 89 | 5 | 76 | 5 | 89 | 5 | 76 | 5 |
| Cəmi | 559 | 173 | 467 | 131 | 547 | 169 | 456 | 127 |

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən narkomanlıq xəstəliyindən azad olan insanların cəmiyyətə inteqrasiyası və məşğulluğunun təmin edilməsi məqsədilə Dövlət Sosial Müdafiə Fondunun nəzdində penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün 50 yerlik Sosial Adaptasiya Mərkəzi yaradılmışdır. Dövlət Məşğulluq Agentliyi tərəfindən sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər kateqoriyasına aid cəzaçəkmə müəssisələrindən azad edilən 275 nəfər haqqı ödənilən ictimai və digər işlərlə təmin edilmişdir.

Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyində narkotik vasitələrin və psixotrop maddələrin təyini məqsədilə 2962 tədqiqat aparılmışdır.

Həmin tədqiqatlar zamanı 128 halda biomateriallarda tiryək alkaloidləri, 107 halda heroin, 7 halda morfin, 5 halda kodein, 60 halda kannabinoidlər, 49 halda amfetamin və metamfetamin, 6 halda metadon, 7 halda tramadol, 3 halda preqabalin, 10 halda 1,4-benzodiazepin törəməsi, 3 halda fenotiazin törəməsi, 4 halda barbitur turşusu törəməsi, 39 halda digər dərman maddələri olmaqla ümumilikdə 428 halda narkotik vasitələr və psixotrop maddələr aşkarlanmışdır.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi tərəfindən məhkəmə və hüquq mühafizə orqanlarının qərarlarına əsasən təyin edilmiş ekspertizalar əsasında narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları üzrə 6610 ekspert rəyi və arayış verilmişdir. 2019-cu illə müqayisədə bu növ ekspertizaların sayı 1014 vahid və ya 18,1% artmışdır.

# BEYNƏLXALQ ƏMƏKDAŞLIQ



## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

“26 iyun- Narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə Beynəlxalq Mübarizə Günü” ilə əlaqədar ötən il iyun ayının 25-də Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası sədrinin, Dövlət Komissiyası üzvlərinin və aidiyyəti dövlət qurumları rəhbərlərinin iştirakı ilə “Gənclər arasında narkomanlığa qarşı mübarizənin gücləndirilməsi” mövzusunda keçirilmiş onlayn konfransda Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti, müvafiq sahədə cinayətkarlıqla mübarizənin nəticələri, pandemiya və postpandemiya dövrlərində bu sahədə həyata keçirilməli olan maarifləndirmə tədbirlərinin formaları və qarşıda duran vəzifələr ətraflı müzakirə edilərək müvafiq qərarlar qəbul edilmişdir.



“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nın aidiyyəti bəndlərinin icrası ilə əlaqədar ölkəmiz beynəlxalq və regional təşkilatlarla əməkdaşlığın gücləndirilməsi istiqamətində səylərini davam etdirir. BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (BMTNCİ) tərəfindən həyata keçirilən layihələrin bir qismi ötən il də davam etdirilmişdir.

## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

GLOG80 "BMTNCİ-Beynəlxalq Gömrük Təşkilatının Qlobal Konteynerlərin daşınmasına nəzarət proqramının Mərkəzi Asiya və Azərbaycan seqmenti" (KDNP) - KDN Proqramının vəzifəsi narkotik vasitələrin qanunsuz dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq və qara bazar fəaliyyətinin digər formalarında istifadə olunan konteynerlərin daşınması riskinin seçilmiş dəniz və quru portlarda minimuma endirmək üçün davamlı mühafizə strukturlarının yaradılmasında dövlətlərə köməklik göstərməkdir. 2020-ci ildə BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi tərəfindən Konteynerlərin Daşınmasına Nəzarət layihəsi çərçivəsində Azərbaycan Gömrük Komitəsinin əməkdaşları üçün bir sıra onlayn təlimlər keçirilmişdir.

Ölkə iqtisadiyyatının sürətli inkişafı, infrastrukturun yenilənməsi, informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi dünya ölkələri arasında Azərbaycanın nüfuzunun yüksəlməsinə və daha da cəlbedici olmasına səbəb olmuşdur.

Hər il mötəbər forumların, konfransların yüksək səviyyədə təşkil edilməsi artıq ənənə halını almışdır. Məhz bu baxımdan hər il narkotiklərlə mübarizə sahəsində bir sıra beynəlxalq əhəmiyyətli tədbirlər keçirilir.

2020-ci ilin 4-5 mart tarixlərində Brüssel şəhərində Avropa İttifaqı Azərbaycan Əməkdaşlıq Komitəsi çərçivəsində fəaliyyət göstərən Ədliyyə, Azadlıq və Təhlükəsizlik, insan hüquqları və demokratiya üzrə altkomitənin növbəti 8-ci iclasının ikinci günündə "Azərbaycanda və Avropa İttifaqında narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi" mövzusunda fikir mübadiləsi aparılmış, eyni zamanda, Narkotiklər və Narkotiklərdən Asılılıq üzrə Avropa Monitorinq Mərkəzi ilə əməkdaşlıq imkanları müzakirə edilmişdir.



Həmçinin ötən ilin 29 iyul və 25-27 noyabr tarixlərində Mərkəzi Asiya Regional İnformasiya və Əlaqələndiricilər Şurasının növbəti iclasının sənəd layihələrinin hazırlanması məqsədilə MARİƏM-in iştirakçı dövlətlərinin ekspertlərinin video formatda keçirilən konfransında aidiyyəti qurumların nümayəndələri iştirak etmişdir.

Konfransın məqsədi həmçinin Azərbaycan Respublikasının bu proqrama qoşulmaq marağını və qarşıdan gələn illər üçün narkotiklər, cinayətkarlıq və terrorçuluqla mübarizə sahəsindəki prioritetlərini öyrənmək, Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin növbəti illər üçün qlobal istiqamətlərini təqdim etmək, birgə əməkdaşlıq planlarını və gələcək perspektiv imkanlarını müzakirə etmək olmuşdur.

## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ




2020-ci ilin 2-4 dekabr tarixlərində Birləşmiş Millətlər Təşkilatının (BMT) Narkotik Vasitələr üzrə Komissiyasının hibrid formatda keçirilən 63-cü sessiyasında aidiyyəti qurumların nümayəndələri iştirak etmişdir.

Sessiyada Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən verilən tövsiyələr əsasında bir sıra maddələr üzrə narkotiklərə nəzarət sahəsində müvafiq beynəlxalq konvensiyaların cədvəllərində dəyişikliklər edilməsi ilə bağlı müzakirələr aparılmışdır.

# NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ VƏTƏNDAŞ FƏALLIĞININ ARTIRILMASINA YÖNƏLƏN TƏDBİRLƏR

802
Qaynar xətt:

www.nmdk.gov.az
info@nmdk.gov.az

## NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ VƏTƏNDAŞ FƏALLIĞININ ARTIRILMASINA YÖNƏLƏN TƏDBİRLƏR

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.1.10-cu yarımbəndinə uyğun olaraq, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının qarşısının alınması istiqamətində vətəndaşların aktiv fəaliyyət göstərmələrinin təmin edilməsi məqsədilə, aidiyyəti nazirlik, komitə və təşkilatlarla operativ qaydada əlaqələndirməni təmin etmək üçün 2020-ci ilin oktyabr ayından etibarən Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunda "802" qaynar xətt əlaqə mərkəzi fəaliyyətə başlamışdır.

Ötən ildə qaynar xəttə 30 müraciət daxil olmuş, onlardan 5-i narkotik vasitələrin qanunsuz satışı (1 müraciət əsasında cinayət işi başlanılıb), 9-u narkomaniyadan müalicə (6 nəfər müalicəyə qəbul olunub), 16-sı isə digər məsələlərlə bağlı olmuşdur. Qeyd olunan müraciətlər müvafiq tədbirlər görülməsi üçün aidiyyəti orqanlara göndərilmişdir.

Eyni zamanda, narkotiklərin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində vətəndaş fəallığının artırılması məqsədilə "802" qaynar xətt telefon xidmətinin fəaliyyət istiqamətinə dair sosial çarx hazırlanmış və televiziya kanallarında, o cümlədən sosial şəbəkələrdə yayımlanması təmin edilmişdir.

**NARKOTİK VASİTƏLƏRİN VƏ NARKOMANLIĞIN YAYILMASININ QARŞISINI ALMAQ MƏQSƏDİLƏ AİDİYYƏTİ TƏŞKİLATLARLA VƏ VƏTƏNDAŞLARLA OPERATİV QAYDADA ƏLAQƏLƏNDİRMƏNİ TƏMİN EDƏN ZƏNG XİDMƏTİDİR**



## NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ VƏTƏNDAŞ FƏALLIĞININ ARTIRILMASINA YÖNƏLƏN TƏDBİRLƏR

Tədbirlər Planının 4.1.22-ci yarımbəndinə uyğun olaraq, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının **www.nmdk.gov.az** internet saytı təkmilləşdirilmiş, onun mobil versiyası hazırlanmış, "onlayn müraciət" bölməsinin yaradılması təmin edilmişdir.

"Onlayn müraciət" bölməsinə 13 müraciət daxil olmuş, onlardan 7-si narkotik vasitələrin qanunsuz satışı (2 müraciət əsasında cinayət işləri başlanılıb), 5-i narko-maniyadan müalicə, 1-i isə digər məsələ ilə bağlı olmuşdur.



# NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİK İŞLƏRİN TƏŞKİLİ



## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİK İŞLƏRİN TƏŞKİLİ

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin,psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nda ölkəmizdə narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıqla mübarizə sahəsində dövlət siyasətinin strateji istiqamətləri müəyyən olunmuşdur.

**Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi -** Dövlət Proqramının Tədbirlər Planının 4.1.19-cu yarımbəndinə uyğun olaraq, polis orqanlarının 35 məsul növbətçisinə, 41 baş əməliyyat müvəkkilinə, 16 yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili xidmətinin baş inspektorlarına, 28 sahə rəisinə "Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslər arasında profilaktik işin təşkili və aparılması","Yetkinlik yaşına çatmayanların, gənclərin sağlam ruhda tərbiyə olunmasında, antinarkomaniya tədbirlərinin həyata keçirilməsində dövlətin rolu və polisin vəzifələri", "Yeni psixoaktiv maddələrin növləri və onlara qarşı mübarizə üsulları" mövzuları üzrə seminar-məşğələlər keçirilmişdir. Əhalinin maarifləndirilməsi üzrə 535 təlimatçı hazırlanmış və onların iştirakı ilə ötən il ümumtəhsil, orta ixtisas və ali təhsil müəssisələrində və yaşayış yerləri üzrə uşaq və gənclər arasında narkotik maddələrdən istifadənin qarşısının alınması, bu növ vasitələrin qanunsuz dövriyyəsi, zərərli nəticələri və cəza mexanizmlərinin geniş təbliği məqsədilə 350-dən çox görüş keçirilmişdir. Antinarkotik təbliğatın müasir forma və metodlardan istifadə etməklə həyata keçirilməsi məqsədilə 5 ədəd videoçarx və 2 ədəd təqdimat hazırlanaraq kütləvi informasiya vasitələrində, o cümlədən sosial şəbəkələrdə geniş işıqlandırılmışdır.

**Azərbaycan Respublikasının Baş Prokurorluğu-** Dövlət Proqramının Tədbirlər Planının 4.1.12-ci yarımbəndinə uyğun olaraq, qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma ilə bağlı respublikanın məhkəmələri tərəfindən 2019-cu ildə və 2020-ci ilin birinci yarımilində baxılmış cinayət işləri üzrə məhkəmə təcrübəsi müqayisəli şəkildə öyrənilərək müvafiq ümumiləşdirmə aparılmış, əməliyyat müşavirələrində müzakirə edilmiş və aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün zəruri tədbirlər görülmüşdür. 2019-cu ildən başlanılmış cinayət işləri üzrə narkotiklərin əldə edilməsi mənbəyinin müəyyən edilməsi məqsədilə 2020-ci ilin birinci rübündən müvafiq baza yaradılmışdır.

**Azərbaycan Respublikasının Hərbi Prokurorluğu -** Dövlət Proqramının Tədbirlər Planının 4.4.33-cü yarımbəndinə uyğun olaraq, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə" mövzusunda ərazi hərbi prokurorluqlarının əməkdaşları tərəfindən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin 69, Dövlət Sərhəd Xidmətinin 21, Daxili Qoşunlarının 14, Fövqaladə Hallar Nazirliyinin 17 hərbi hissəsində, habelə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində və Silahlı Qüvvələrin Hərbi Akademiyasında təbliğat xarakterli mühazirələr oxunmuş, hərbi qulluqçularla bu qəbildən olan cinayətlərin ictimai təhlükəliliyi və həmin əməllərə görə cinayət məsuliyyəti barədə izahedici söhbətlər aparılmışdır.

## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİK İŞLƏRİN TƏŞKİLİ

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi -** Dövlət Proqramının Tədbirlər Planının 4.1.20-ci yarımbəndinə əsasən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizəyə dair BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi tərəfindən dərc olunan nəşrlər, illik hesabatlar əldə edilərək, geniş auditoriyaya təqdim edilməzdən əvvəl Dövlət Komissiyasının İşçi Qrupuna təqdim edilir. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsindən əldə edilən pul vəsaitləri hesabına baş verən cinayətlər və korrupsiya ilə mübarizə sahəsində aidiyyəti qurumların əməkdaşlarının bilik və bacarıqlarının inkişaf etdirilməsi üçün Beynəlxalq Antikorrupsiya Akademiyası arasında əməkdaşlıq gücləndirilmiş və Xarici İşlər Nazirliyinin əlaqələndirilməsi nəticəsində qeyd olunan Akademiyanın tədris proqramlarına aidiyyəti qurumların nümayəndələri cəlb edilmişdir.

**Azərbaycan Respublikasının Təhsil Nazirliyi -** Dövlət Proqramının Tədbirlər Planının 4.4.25-ci yarımbəndinə əsasən ali, orta ixtisas, ilk peşə ixtisas, ümumtəhsil məktəblərində, məktəbdənkənar təhsil müəssisələrində "Narkomaniyaya qarşı mübarizə sağlam həyata təminatdır", "Narkomaniyaya yox deyək", "Tütün, alkoqol, infeksion və qeyri-infeksion xəstələrin profilaktikası", "Narkomaniyanın fəsadları", "Sağlam həyat", "Ağ ölüm-narkomaniya öldürür", "Narkomaniya ümumbəşəri bəladır" və digər mövzularda dəyirmi masalar, onlayn seminar və konfranslar keçirilmişdir. Təhsilalanların təlim-tərbiyəsinə, məşğulluğuna, asudə vaxtlarının səmərəli təşkilinə diqqətin artırılması istiqamətində məktəbdənkənar təhsil müəssisələri tərəfindən mütəmadi olaraq müxtəlif formada tədbirlər həyata keçirilmişdir.

Gənclərin yaradıcı təfəkkürünün, bilik və məlumatlılıq səviyyələrinin artırılması,



## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİK İŞLƏRİN TƏŞKİLİ

istedadlarının üzə çıxarılması məqsədilə ölkədaxili və beynəlxalq səviyyəli idman yarışları, yaradıcılıq müsabiqələri, intellektual oyunlar, sərgilər və digər tədbirlər təşkil olunmuşdur. Mövcud vəziyyətlə əlaqədar məktəbdənkənar fəaliyyət sahəsində onlayn platformalarda reallaşan tədbirlərə ümumilikdə 20 minə yaxın məktəbli qoşulmuşdur.

Dövlət Proqramının Tədbirlər Planının 4.4.17-ci yarımbəndinin icrası məqsədilə Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən "Məktəblilərin narkotik vasitələrdən qorunması yolları" və "Təhsilalanların narkotik vasitələrdən və psixotrop maddələrdən qorunmasının tibbi-pedaqoji profilaktikası" adlı tədris-metodik vəsaitləri hazırlanmışdır. Ali təhsil müəssisələrində "Tibbi biliyin əsasları" fənninin tədris proqramına profilaktika, müalicə, reabilitasiya və maarifləndirmə istiqamətləri üzrə mövzular əlavə edilmişdir.

**Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi -** Dövlət Proqramının Tədbirlər Planının 4.4.4-cü yarımbəndinə uyğun olaraq, narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin müəyyənləşdirilməsinə kömək məqsədilə BMT-nin Narkotiklər və Cinayətlər üzrə İdarəsi tərəfindən hazırlanmış "Narkotik Maddələrin İstifadəsinin Profilaktikası üzrə Beynəlxalq Standartlar" adlı kitabı ingilis dilindən tərcümə edilərək, nəşr olunmuşdur. Dövlət Proqramının digər bəndlərinin icrası məqsədilə profilaktika, maarifləndirmə tədbirləri çərçivəsində "Narkomaniyaya Yox Deyək" devizi altında gənclər arasında qol güləşi turniri, "Narkomaniya və digər zərərli vərdişlərə qarşı birgə mübarizə aparaq", "Narkotiksiz gənclik", "Tütün və narkotikin insan həyatına zərərləri", "Sağlam həyat - sağlam gələcək deməkdir", "Narkomaniyaya YOX deyək", "Sağlam həyat tərzi yaşayaq" adlı onlayn təlimlər, konfranslar təşkil. edilmişdir. Aktiv gənclərin təşəbbüsü ilə "Ağ ölüm" adlı qısametrajlı, sosial xarakterli videoçarxlar hazırlanmışdır.





**Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyi -** Dövlət Proqramının Tədbirlər Planının 4.4.15 və 4.4.16-cı yarımbəndlərinə uyğun olaraq, narkotik xassəli bitkilərin qanunsuz kultivasiyası və yabanı halda yayılmasının qarşısının alınması üzrə müvafiq işlər həyata keçirilmişdir. Belə ki, Qazax rayonunda 2,1 hektar ərazidə yaş halda 7,5 ton, Daşkəsən rayonunun Kəmərqaya kənd ərazisində 2,4 ton, Zaqatala Dövlət Təbiət Qoruğu ərazisində 4225 ədəd, Samur Yalama Milli Parkının ərazisində 55 ədəd, Masallı Regional Meşə Təsərrüfatı Müəssisəsinin 1 saylı meşəbəyliyinin 2 saylı meşə dolayında 50 ədəd, Şamaxı Regional Meşə Təsərrüfatı Müəssisəsinin Qalınçaq meşəbəyliyinin 8 saylı meşə dolayında 2457 ədəd, Şabran Regional Meşə Təsərrüfatı Müəssisəsinin dənizkənarı meşəbəyliyinin 7 saylı meşə dolayında 19 ədəd, Bərdə Regional Meşə Təsərrüfatı Müəssisəsinin 8 saylı dolayında 3035 ədəd yabanı halda bitmiş narkotik tərkibli çətənə kolu aşkar edilərək, aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə məhv edilmişdir.

## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİK İŞLƏRİN TƏŞKİLİ





**Azərbaycan Respublikasının Müdafiə Nazirliyi -** Dövlət Proqramının Tədbirlər Planının 4.4.33-cü yarımbəndinin icrası məqsədilə tabeliyindəki birlik, birləşmə, müəssisə və təşkilatlarda hərbi qulluqçular üçün narkotik vasitələrin və psixotrop maddələrin insan orqanizminə vurduğu zərər, onların cəmiyyətdə törətdiyi fəsadlar haqqında "Narkomaniya nədir?", "Narkomanlıqla mübarizə hər birimizin vətəndaşlıq borcudur", "Gənclər sağlam həyat tərzi seçir və narkomaniyaya yox deyir" mövzularında mühazirələr oxunmuşdur. Hərbi qulluqçuların məlumatlandırılması məqsədilə bölmələrdə xüsusi divar qəzetləri buraxılmış, hərbi hissələrin radio şəbəkəsi vasitəsilə və tərbiyəvi iş saatlarında izahedici söhbətlər aparılmışdır. "Azərbaycan Ordusu" qəzetində mövzuya dair maarifləndirici məqalələr çap olunmuşdur.

Cəbhə xəttində yerləşən rayonlarda yayılan narkotik tərkibli yabanı bitki növlərinin zərərli xassələri barədə hərbi qulluqçular da məlumatlandırılmışdır. Hərbi hissələrdə həkim təyinatı ilə narkotik tərkibli dərman vasitələri və medikamentlər qəbul edən hərbi qulluqçuların fərdi uçotunun aparılmasına və onlar tərəfindən müvafiq preparatların istifadəsinə nəzarət gücləndirilmişdir.

Həmçinin narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işi Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətində, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında, Fövqəladə Hallar Nazirliyində, Xarici Kəşfiyyat Xidmətində, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində və başqa silahlı birləşmələrdə həqiqi hərbi xidmət keçənlər, o cümlədən digər qulluqçular arasında da gücləndirilmişdir.

## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİK İŞLƏRİN TƏŞKİLİ

**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi -** Dövlət Proqramının Tədbirlər Planının 4.4.8-ci yarımbəndinə uyğun olaraq, narkomanlıq xəstəliyindən azad olan insanların cəmiyyətə inteqrasiyası və məşğulluğunun təmin edilməsi məqsədilə Dövlət Sosial Müdafiə Fondunun nəzdində 50 yerlik penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzi yaradılmışdır. Dövlət Məşğulluq Agentliyi tərəfindən sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər kateqoriyasına aid cəzaçəkmə müəssisəsindən azad edilən 275 nəfər haqqı ödənilən ictimai işlərlə və həmçinin digər işlərlə təmin edilmişdir. Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi fəaliyyətə başladığı vaxtdan müəssisəyə 143 uşaq (cari ildə 21 uşaq) qəbul edilərək onların sosial reabilitasiyası həyata keçirilmişdir. Hazırda müəssisədə 27 uşağa eyni zamanda sosial, hüquqi müdafiə, sosial-psixoloji, tibbi-sosial və s. xidmətlərin təşkili istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Bu çərçivədə həmçinin "Uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması və çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi məqsədilə günərzi mərkəzlərin xidmətinin göstərilməsi" layihəsi həyata keçirilir.

**Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi -** Dövlət Proqramının Tədbirlər Planının 4.1.19-cu yarımbəndinə uyğun olaraq, narkotik vasitələrdən, psixotrop maddələrdən sui-istifadə ilə əlaqədar mübarizə tədbirlərinin daha da gücləndirilməsi və narkoloji xidmətin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə bir sıra qabaqlayıcı təşkilati və əməli işlər görülmüşdür. Hesabat dövründə Ə.Əliyev adına Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Psixiatriya və narkologiya kafedrası tərəfindən 6 həkim-psixiatr, 6 həkim-narkoloq və ümumilikdə 31 həkim üçün 8 günlük kurslar keçirilmişdir. Respublika Narkoloji Mərkəzinin, QİÇS-lə Mübarizə Mərkəzinin və İctimai Səhiyyə və İslahatlar Mərkəzinin Təşkilatçılığı ilə "Sağlam həyat tərzi, QİÇS-dən qorunma", "Zərərli vərdişlər", "Narkomaniyaya yox deyək", "Uşaqlar bizim gələcəyimizdir", "Gəncliyimizi narkomaniyadan qoruyaq", "Pandemiya dövründə sağlam həyat tərzinin vacibliyi" və s. mövzularda onlayn maarifləndirici tədbirlər və təlimlər keçirilmişdir. Bundan əlavə, "Ailə həkimi" jurnalında psixoaktiv maddələrin zərərinə həsr olunmuş rubrika açılmış, "Tibb", "Azərbaycan", "İki Sahil" qəzetlərində, o cümlədən Səhiyyə Nazirliyinin **www.health.gov.az**, Respublika Narkoloji Mərkəzinin **www.rnm.az** internet səhifələrində narkomanlığın cəmiyyətə və insan sağlamlığına zərəri, bu sahədə həyata keçirilən tədbirlər, onların istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Bu çərçivədə həmçinin "Uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması və çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi məqsədilə günərzi məqsədi və mahiyyəti barədə mütəmadi olaraq təbliğat işi aparılmışdır.



## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİK İŞLƏRİN TƏŞKİLİ

**Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi -** Dövlət Proqramının Tədbirlər Planının 4.4.25-ci yarımbəndinə uyğun olaraq, tabeliyində olan incəsənət məktəblərində "Narkomaniyaya yox deyək" adlı onlayn rəsm sərgiləri, rəsm qalereyalarında "Narkomaniya ictimai bəladır", "Narkomaniya ilə mübarizə ümumxalq işidir" mövzularında həvəskar rəssamların əl işlərindən ibarət sərgi və müsabiqə, mərkəzləşdirilmiş kitabxana sistemində "Narkomaniya əsrin bəlasıdır" mövzusunda kartoteka tərtib edilərək, "Gəlin gələcəyimizi qoruyaq" başlıqları altında kitab sərgiləri təşkil edilmiş, "Narkotik maddələr təlādir", "Narkomaniya bəlası", "Narkotikdən uzaq ol","Narkomaniyanın genefondumuza gətirdiyi fəsadlar" və s. mövzularda onlayn maarifləndirmə tədbirləri keçirilmişdir. Azərbaycan Milli Kitabxanası tərəfindən "Narkomaniyaya yox deyək" adlı elektron məlumat bazası yaradılmışdır.

**Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi -** Dövlət Proqramının Tədbirlər Planının 4.4.20 və 4.4.23-cü yarımbəndinə uyğun olaraq, respublikanın Zaqatala, Zərdab, Saatlı, Goranboy, Ağdam, Hacıqabul, Sabirabad rayonlarında narkomaniyanın cəmiyyət və insan sağlamlığı üçün zərərləri haqqında məlumatlandırma aparılmış və "Narkotik maddələrə yox" adlı buklet paylanılmışdır. Komitənin Uşaq və Ailələrə Dəstək Mərkəzinin hər birindən 1 nəfər olmaqla, 11 əməkdaşına narkomanlıqla mübarizə sahəsində maarifləndirmə tədbirlərinin aparılması məqsədilə təlim keçirilmiş və təlim paketi hazırlanmışdır. Bundan əlavə, uşaqlarla iş aparan sosial xidmət müəssisələrinin 90 nəfər əməkdaşı üçün "Uşaqların zərərli vərdişlərdən qorunması" mövzusunda maarifləndirici onlayn tədbirlər təşkil edilmişdir.





## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİK İŞLƏRİN TƏŞKİLİ

**Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi -** Dövlət Proqramının Tədbirlər Planının 4.4.23-cü yarımbəndinə uyğun olaraq, respublikanın bir çox şəhər və rayonunda "İşıqlı gələcək naminə narkomaniyaya yox deyək", "Narkomaniyanın fərdi və ictimai təhlükələri", "Narkomaniyanın mənəvi və fiziki zərərləri", "Narkomaniya mənəvi dəyərlərimizin düşmənidir", "Narkomanlığa qarşı mübarizədə dini icmaların və din xadimlərinin rolu" və digər mövzularda maarifləndirmə tədbirləri keçirilmişdir.





**Azərbaycan Milli Elmlər Akademiyası -** Dövlət Proqramının Tədbirlər Planının 4.4.16-cı yarımbəndinə əsasən yabanı halda bitən, çiçəkli bitkilər qrupuna aid olub biomüxtəliflikdə xüsusi əhəmiyyət kəsb edən narkotik tərkibli bitkilərin vegetasiya dövrü nəzərə alınmaqla, qabaqlayıcı tədbirlər görülməsi, qanunsuz əkinlərin məhv edilməsi, yeni yayılma ərazilərinin müəyyən olunması məqsədilə respublikanın Quba və Qusar rayonlarına ekspedisiyalar təşkil olunmuşdur. Nəticədə Qusar rayonunun Laza kəndi ərazisində sıx yayılmış əkin çətənəsi, qara batbat, dəlibəng və şərqləsi bitki növləri haqqında yerli əhali ilə maarifləndirici söhbətlər aparılmışdır.





## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİK İŞLƏRİN TƏŞKİLİ

**Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası -** Dövlət Proqramının Tədbirlər Planının 4.4.28 və 4.4.31-ci yarımbəndlərinə uyğun, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında qanunvericiliyin müddəalarının və tələblərinin əhaliyə izah edilməsi məqsədilə teleradio yayımçıları tərəfindən bir sıra proqramlar hazırlanaraq efirə verilmiş, ictimai maarifləndirmə işinin genişləndirilməsi məqsədilə regional televiziya kanallarında tədbirlər keçirilmişdir. Həmçinin sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı sənədli və animasiya filmlərinin hazırlanması üçün teleradio yayımçılarına müvafiq tövsiyələr verilmişdir.

**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası -** Dövlət Proqramının Tədbirlər Planının 4.1.18-ci və 4.4.35-ci yarımbəndlərinə uyğun olaraq 2020-ci ildə Səhiyyə Nazirliyi ilə birgə elan edilmiş qrant müsabiqəsi çərçivəsində "Narkomaniya və tütünə qarşı mübarizə ilə bağlı maarifləndirmə kompaniyalarının keçirilməsi" istiqaməti üzrə 10 qeyri-hökumət təşkilatının layihəsinə 57500 AZN maliyyə vəsaiti ayrılmışdır. Layihələr çərçivəsində "Asılı olma, azad ol" adlı maarifləndirmə tədbiri keçirilmiş, "Siqaretdən uzaq dur" adlı kitab, "Tütünsüz həyat" və "Həyatımızda tütünə yox deyək" adlı videoçarxlar hazırlanmış, yeniyetmələrin müvafiq sahə üzrə maarifləndirilməsi məqsədilə **www.zvm.az** adlı internet səhifəsi yaradılmışdır.






## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİK İŞLƏRİN TƏŞKİLİ

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası -** üzv təşkilatları ilə birlikdə gənclərin fəallığını təmin etməyə, işləyən və təhsil alan gənclərin hüquq və mənafelərinin qorunması üzrə əməkdə, təhsildə və ictimai fəaliyyətdə xüsusi nailiyyətlər əldə etmiş 18 sahə üzrə həmkarlar ittifaqı orqanlarından 45 nəfər gənc işçiyə "İlin peşəkar gənci" fəxri adı verilmişdir. Eyni zamanda, 2020-ci ilin dekabr ayında Beynəlxalq Əmək Təşkilatının təşəbbüsü ilə "Qeyri-rəsmi məşğulluqdan rəsmi məşğulluğa keçid və gənclərin məşğulluğu" mövzusunda vebinar keçirilmişdir.





2020-ci ildə şəhər və rayon icra hakimiyyətlərində fəaliyyət göstərən Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə komissiyalar tərəfindən yetkinlik yaşına çatmayanların və gənclərin təlim-tərbiyəsinə, məşğulluğuna, asudə vaxtlarının səmərəli təşkilinə diqqətin artırılması, idman, incəsənət və ictimai faydalı əməklə məşğul olmaları üçün şəraitin yaradılması, narkotiklərə meyilli şəxslər barəsində vaxtında qabaqlayıcı, profilaktik tədbirlərin həyata keçirilməsi istiqamətində mövcud şəraitə uyğun olaraq bir sıra işlər görülmüşdür.



## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİK İŞLƏRİN TƏŞKİLİ

**Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu** tərəfindən Dövlət Proqramına uyğun olaraq, müasir informasiya texnologiyalarının imkanlarından istifadə edilməklə, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması istiqamətində məqsədyönlü işlər görülmüş, bu sahədə fəaliyyət göstərən qurumların koordinasiyası təşkil edilmiş, qarşılıqlı əməkdaşlıq nəticəsində ictimai maarifləndirmə işlərinin əhatəsi genişləndirilmişdir.

2020-ci ilin 30 iyun tarixində Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun təşkilatçılığı, Dövlət Komissiyasına üzv olan qurumların məsul əməkdaşlarının, Bakı şəhəri və respublikanın şəhər, rayon komissiyalarının sədrlərinin iştirakı ilə "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı aparılan mübarizə və bu sahədə qarşıda duran vəzifələr" mövzusunda onlayn konfrans keçirilmişdir.





Dövlət Komissiyasının üzvləri və aidiyyəti qurumların məsul əməkdaşlarının iştirakı ilə "Narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə" mövzusunda 26 və 30 iyun tarixlərində televiziya kanallarında xüsusi verilişlərin təşkili həyata keçirilmişdir.



## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİK İŞLƏRİN TƏŞKİLİ

Dövlət Komissiyasının İşçi Qrupu və Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin birgə təşkilatçılığı ilə müasir informasiya texnologiyalarının imkanlarından istifadə etməklə, sms maarifləndirmə layihəsi çərçivəsində 2020-ci ilin 25 iyun tarixindən başlayaraq, sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı "Azərfon", "Bakcell" MMC və "Azercell Telekom" MMC vasitəsilə ümumilikdə 7,2 milyon aktiv abunəçiyə sms bildirişinin göndərilməsi həyata keçirilmişdir.




Görülən işlərin davamı olaraq, Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.35-ci yarımbəndinin icrası ilə əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu ilə "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin birgə əməkdaşlığı çərçivəsində 20 ədəd sosial lövhə "Memar Əcəmi", "Koroğlu", "Azadlıq", "Həzi Aslanov", "Əhmədli", "Xalqlar Dostluğu", "İnşaatçılar", "Nəsimi", "Gənclik","Nəriman Nərimanov" və digər stansiyalarda quraşdırılmış və bir il ərzində nümayişi nəzərdə tutulmuşdur.






## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİK İŞLƏRİN TƏŞKİLİ

Cəzaçəkmə müəssisələrində anti-narkotik təbliğat işinin gücləndirilməsi məqsədilə Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə Dövlət Komissiyasının İşçi Qrupu arasında təsdiq olunmuş Tədbirlər Planına uyğun olaraq, hesabat dövründə cəzaçəkmə müəssisələrində və Penitensiar Xidmətin Mühafizə Alayında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Səhiyyə Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələri cəlb edilməklə, maarifləndirmə tədbirləri, o cümlədən penitensiar müəssisələrin əməkdaşları üçün təlim-məşğələ keçirilmişdir.






Bununla yanaşı, üzərində narkomaniya və narkotiklərin fəsadları barədə xəbərdaredici məlumatlar əks olunan 24 sosial lövhə Penitensiar Xidmətin Mühafizə Alayında, konvoy taborunda və cəzaçəkmə müəssisələrində quraşdırılmışdır.






## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİK İŞLƏRİN TƏŞKİLİ

Dövlət Proqramının Tədbirlər Planının 4.4.38-ci yarımbəndinin icrası ilə əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən narkomanlığın zərəri barədə incəsənət xadimlərinin iştirakı ilə hazırlanmış "Narkotik-sərhədsiz fəlakətdir" videoçarxının






və animasiya formatında olan "İçindəki günəşi qoru, narkotikə yox de" adlı sosial rolikin 2020-ci ilin noyabr ayından etibarən televiziya kanallarında işıqlandırılması təmin edilmişdir.





## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİK İŞLƏRİN TƏŞKİLİ

Qeyd olunanlardan əlavə, Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən hazırlanmış "Çalış ki, Narkotikə Hədəf Olmayasan" adlı sosial rolikin Azərbaycan Dövlət Reklam Agentliyi vasitəsilə 2020-ci ilin 6 iyul-6 avqust tarixlərində Bakı şəhərinin küçə və prospektlərində quraşdırılmış reklam monitorlarında nümayişi təmin edilmişdir.






Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının icrası, həmçinin "26 iyun-Narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə Beynəlxalq Mübarizə Günü" ilə əlaqədar "Narkomaniyaya birlikdə yox deyək" adlı xüsusi loqo, hər il olduğu kimi, 2020-ci ildə də iki formada 25 iyun tarixindən (3 gün müddətində) Bakı Nəqliyyat Agentliyinin elektron informasiya terminallarında (VMS) nümayiş olunmuşdur.





## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİK İŞLƏRİN TƏŞKİLİ

Görülən işlərin davamlılığını təmin etmək üçün Dövlət Komissiyasının İşçi Qrupu ilə Azərbaycan Dövlət Reklam Agentliyinin birgə təşkilatçılığı ilə narkomaniya ilə bağlı xüsusi şüarlardan hazırlanmış yeni maarifləndirmə xarakterli sosial çarxın Bakı şəhərinin bir sıra küçə və prospektlərində olan elektron lövhələrdə yayımlanması həyata keçirilmişdir.

Bundan əlavə İşçi Qrupu ilə Bakı Nəqliyyat Agentliyinin birgə əməkdaşlığı çərçivəsində yeni maarifləndirmə xarakterli sosial çarx "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin 200-dən artıq avtobusunda mövcud olan monitorlarda nümayiş etdirilmişdir.







Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında qanunvericiliyin tələblərinin izah edilməsi, o cümlədən narkomanlığın cəmiyyətə və insanların sağlamlığına ziyanı, bu sahədə görülən tədbirlər və onların nəticələri barədə mütəmadi olaraq əhalini məlumatlandırmaq məqsədilə 2014-cü ildə "İki Sahil" qəzetində rubrika açılmış, rubrika 2014-2020-ci illərdə uğurla davam etdirilərək, aidiyyəti təşkilatlar tərəfindən təqdim edilən materiallar hər həftə dərc edilmişdir.


Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə uğurla davam etdirilməkdədir



## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİK İŞLƏRİN TƏŞKİLİ

Sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı sosial maarifləndirmə işinin daha da genişləndirilməsi məqsədilə Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən üzərində xüsusi şüarlar əks olunan yeni forma və dizaynda sosial lövhələr hazırlanmışdır.

Qeyd olunan sosial lövhələrin Bakı şəhərinin avtobus dayanacaqlarında, metro stansiyalarında, Bakı şəhərinin bir sıra küçə və prospektlərində olan elektron lövhələrdə, iri ticarət və əyləncə mərkəzlərində və ictimaiyyətin sıx toplaşdığı digər yerlərdə yayımlanması, habelə respublikanın şəhər və rayonlarına xidməti istifadə üçün göndərilməsi nəzərdə tutulur.







Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin müəyyənləşdirilməsinə kömək məqsədilə "Narkotiklər haqqında həqiqəti bilin", "Psixotrop maddələr", "Marixuana haqqında həqiqət" adlı metodiki materiallar hazırlanmış, onlardan istifadənin təşviqi üçün internet resurslarında yerləşdirilməsi təmin edilmişdir.



## NARKOMANLIĞA QARŞI TƏBLİĞAT VƏ PROFİLAKTİK İŞLƏRİN TƏŞKİLİ

Görülən işlərlə yanaşı, ötən ilin dekabr ayında Bakı şəhəri üzrə təhsil müəssisələrində anti-narkotik təbliğat işinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu arasında birgə Tədbirlər Planı imzalanmışdır.

Tədbirlər Planına əsasən 2021-ci il ərzində narkotik və psixotrop maddələrin fəsadları haqqında məlumatlılığın artırılması məqsədilə ümumitəhsil məktəblərində seminar-məşğələlər, şagirdlər arasında narkomanlığa qarşı intellektual və rəsm müsabiqələri, məktəb psixoloqları üçün narkomanlıq probleminə dair təlimlər, məktəblərin uşaq birliyi rəhbərləri, valideyn komitəsi sədrləri, məktəb-valideyn icmasının üzvləri üçün treninqlər, eləcə də müvafiq videofilmlərin nümayişi və zəruri təbliğat materiallarının paylanması ilə əlaqədar bir sıra tədbirlər keçiriləcəkdir.

Bundan əlavə, cəzaçəkmə müəssisələrində anti-narkotik təbliğat işinin daha da gücləndirilməsi məqsədilə Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu arasında 2021-ci il üçün birgə Tədbirlər Planı imzalanmışdır.

2021-ci il ərzində Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Mühafizə Alayında və müəssisələrində əməkdaşlar üçün təlimlər, cəzaçəkən məhkumlar arasında narkotiklərin insan orqanizminə məhvedici təsiri, cəmiyyətə və insanların sağlamlığına ziyanı, QİÇS və digər viruslara yoluxma barədə tibbi-gigiyena, məhkumların reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üçün onlara izahların verilməsi mövzularında, eləcə də müvafiq videofilmlərin nümayişi və zəruri təbliğat materiallarının paylanması ilə əlaqədar bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə sahəsində əməkdaşlığın gücləndirilməsi, aidiyyəti qeyri-hökümət təşkilatlarının, o cümlədən digər vətəndaş cəmiyyəti institutlarının sosial xarakterli tədbirlərin icrasına cəlb olunması məqsədilə Dövlət Komissiyasının İşçi Qrupunun təşəbbüsü ilə narkomanlığın qarşısının alınması sahəsində fəaliyyət göstərən 12 qeyri-hökumət təşkilatının təmsil olunduğu QHT Koalisiyası yaradılmışdır. Qeyd olunan QHT Koalisiyası ilə Dövlət Komissiyasının İşçi Qrupu arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır.

Memoranduma əsasən, tərəflər anti-narkotik təbliğat, ictimai maarifləndirmə işinin əhatəsinin genişləndirilməsi, müasir informasiya texnologiyalarının imkanlarından istifadə olunmaqla, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması sahəsində əməkdaşlıq edəcək, beynəlxalq təcrübədən istifadə etməklə birgə məsləhətləşmələr, profilaktik tədbirlər və seminarlar keçirəcəklər.